Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2019-№2 | Серия общественно-политических наук

**Quliyeva Raziyə Elxanovna**
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*e-mail: guliyeva.raziya@mail.ru*

# TƏLİM PROSESİNDƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN YARADICI TƏXƏYYÜLÜNÜN İNKİŞAFININ PSİXOLOJİ ƏSASLARI

***Açar sözlər:*** *təxəyyül, yaradıcı təxəyyül, təfəkkür, yaradıcılıq, təlim prosesi.*
***Ключевые слова:*** *воображение, творческое воображение, мышление, творчество, обучение.*
***Key words:*** *imagination, creative imagination, thinking, creativity, training.*

Müasir dövrdə cəmiyyətdə baş verən dinamik proseslər təhsil sistemi qarşısında yeni tələblər qoyur. Bu tələblər təhsil məzmununda yaradıcı insanların inkişafına yönəlmiş dəyişikliklərin edilməsini zəruri edir. Məktəbin bu istiqamətdəki səmərəliliyi, təlim prosesində hər bir şagirdin yaradıcı təxəyyülünün inkişafını təmin etməsi, şagirdin yaradıcı şəxsiyyətini formalaşdırması və onu yaradıcı idrak fəaliyyətinə hazırlaması ilə müəyyən edilir.

Aktiv təxəyyülə malik olan insanlar uğurlu və yaradıcı hesab olunurlar. Biz müəyyən müddət ərzində öz hərəkətlərimizi planlaşdıraraq, nail olmaq istədiyimiz məqsədin obrazını təxəyyülümüzdə yaradırıq. Bu zaman faktiki hərəkətlər fikri hərəkətlərlə əvəz olunur - modelləşdirmə prosesi yəni obrazların idarə edilməsi baş verir. Sonradan prosesə təfəkkür də daxil olur və uğurlu nəticəyə gətirib çıxaracaq ardıcıl hərəkətlərin məntiqi zənciri qurulur. Hazırda dünyada dəyişikliklər olduqca sürətlə və böyük miqyasda baş verir. Son 20 ildə olunan kəşflərə və yeniliklərə raket və tısbağanın sürətinin fərqi kimi yanaşmaq olar. Ona görə də 11-12 ildən sonra məktəblilərə məhz hansı biliklərin lazım olacağını əvvəlcədən görmək çox çətindir. Lakin gələcək problemlərin həllinin yaradıcı qabiliyyətlərin inkişafını və kreativ yanaşmanı tələb etməsi heç kimdə şübhə doğurmur.

Müxtəlif metodoloji istiqamətlərdə təlim prosesinin tərkib hissələrinə və yaradıcı düşünmə tələb edən məsələlərə fərqli prizmalardan yanaşılır. Bir çox qərb tədqiqatçıları “yaradıcı sahənin” yaradılması, fəaliyyət üsulunun seçilməsi və müxtəlif ideyaların qəbul edilməsi məsələsində uşağa daha çox müstəqillik veril-

məsinin vacibliyini qeyd edirlər. Bu istiqamətdə E.Torance, L.Rose və H.Lin kreativliyi öyrətmək proqramını təhlil edərək, təlim üsullarını aşağıdakı kimi qruplaşdırmışlar [5]: - problemlərin yaradıcı həllinə əsaslanmış təlim proqramları (A.Osborn və S.Parnes "beyin fırtınası" texnikasından istifadə etmişlər). – dramatik oxu, yaradıcı araşdırma, ümumi semantikanı özündə ehtiva edən müxtəlif fənlərin çərçivəsində yaradıcılığı öyrətmək proqramları. - kiçikyaşlı məktəblilər üçün kompleks produktiv təfəkkür proqramları (Purduc Creativ Proqrtam, Productive Thinking Proqram və d.) Bu proqramlara həm konvergent, həm də divergent təfəkkürün inkişafı daxil edilmişdir, təşviqedici materialın verilməsinin müxtəlif texnikalarından şəkillərlə hekayələr, qulaqcıqlarla dinləmək və s. aktiv surətdə istifadə olunur. - yaradıcı təfəkkürün inkişafı üçün incəsənətin yaradıcı növlərinin öyrədilməsi proqramları. - yaradıcı təfəkkürün məşq etdirilməsi proqramları. - əlverişli şəraitin yadılması və yaradıcı təfəkkürün inkişafı üçün uyğun tədris proqramları (tədris planlarında, dərs cədvəlində, tədris metodikasında dəyişiklik). – yaradıcılığa həvəsləndirmə proqramlarından, mükafatlardan, yarışlardan istifadə.

Yaradıcı təxəyyülün inkişafı üzrə məşğələlərdə şagirdlərin yaradıcı fəallığı təlim mühitindən asılı olur. Torrens məktəbin psixoloji mühitini araşdıraraq, qeyd edir ki, müəllim uşaqların təxəyyülünü inkişaf etdirməklə yanaşı digər funksiyaları da yerinə yetirmək iqtidarındadır: uşağın dostu olmaq, uşaq təfəkkürünün divergentliyini başa düşməkdə ona kömək etmək, onun ideyalarına dəstək olmaq, uşağı anlamaqda onun valideynlərinə və yoldaşlarına kömək etmək, yaradıcı fəaliyyətinə stimul vermək, zəngin təxəyyülü olduğu üçün uşağa qeyri adekvat yanaşmamaq, istehza obyektinə çevirməmək [5]. Uşağın gələcəkdə özünün fantaziyalarının qurbanına çevrilməməsi üçün özünə doğru sualları vermək, cavabları doğru seçməyə və onları reallıq vasitəsilə yoxlamağa kömək etmək lazımdır. Yaradıcı prosesin təkmilləşdirilməsi şagirdlərin təxəyyülünü zənginləşdirməklə yanaşı onların biliklərini, təcrübəsini və maraqlarını da genişləndirir. Yaradıcılıq prosesində şagirdlər həm fəaliyyət prosesindən, həm də əldə edilmiş nəticədən məmnun qalaraq, xoş hisslər keçirirlər. Yaradıcı fəaliyyət yaddaş, təfəkkür, qavrayış, təxəyyül kimi ali psixi funksiyaların optimal və intensiv inkişafına da imkan yaradır.

Yaradıcı qabiliyyətlərin inkişafı mütləq emosional məzmunla birlikdə aparılmalıdır. Bu və ya digər problem (şəxsi və ya intellektual baxımdan) meydana gələn zaman uşağın hislərinə müraciət etmək lazımdır. Bu zaman intellektual problem ("nə isə alınmır") emosional problemə ("mən buna necə yanaşıram", "mən bu barədə nə düşünürəm") dəyişir. Problemlərin bu iki tipinin həll edilməsinin meyarları müxtəlifdir. Koqnitiv məzmunun emosional məzmuna çevrilməsi prinsipinə müvafiq olaraq, insan tərəfindən yerinə yetirilməyən tapşırıq deyil, onun bu tapşırığa olan emosional münasibəti problemə çevrilir. Bu birinci prinsip – koqnitiv məzmunun emosional məzmuna çevrilməsi prinsipidir. İnsanın yaradıcı potensialının inkişaf etdirilməsinin ikinci əsas psixoloji şərti humanist psixologiyanın prinsiplərinə müvafiq olaraq qarşılıqlı fəaliyyətin təşkil edilməsindən ibarət-

dir. Humanist psixologiyanın prinsiplərinin reallaşdırılması özündə aşağıdakı müddəaları ehtiva edir: 1) şagirdin hər bir ideyasının qəbul edilməsi; 2) şagirdin bütün cavablarını müsbət şəkildə qəbul etmək; 3) səhvi yeni baxış imkanı kimi görmək; 4) uşaqların bütün fikirləri və hərəkətlərinə maksimum uyğunlaşmaq; 5) qarşılıqlı etimad mühiti yaratmaq; 6) şəxsi təşəbbüsün irəli sürülməsi imkanı ilə qərarların seçimi və qəbul edilməsində müstəqilliyi təmin etmək.

Uşaqların yaradıcı təxəyyülünün inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən bir çox tədqiqatlarda müəllim amili xüsusi əhəmiyyət kəsb edir. Belə ki, şagirdləri fəal dərs mühitinə cəlb etmək üçün müəllim özüdə təlimə yaradıcı yanaşmalıdır. Bu zaman müəllimin şəxsi və peşə keyfiyyətləri, motivasiya və şəxsi ustanovkaları mayak rolunu oynayır. L.B.Yermolayeva – Tominanın fikrincə, müəllimin dərs prosesində aşağıdakılara diqqət yetirməsi daha məqsədəuyğundur: 1. Uşaqların yaradıcı fəallığının təzahürünə diqqət və həssaslıqla yanaşmaq. Bunun üçün müəllim, ilk növbədə, uşaqlara özlərinin yaradıcı ideyalarını ifadə etməyə imkan verməli və həssas dinləyici olmalıdır. O, həmçinin şagirdə özünü və kreativliyini dərk etməyə kömək etməlidir. Bu uşaqları anlamaqda valideynlərə də yardım göstərilməlidir. Yaradıcı uşaqlar üçün əlverişli mühitin yaradılması uşağın nəinki özünün sosial statusunun eləcə də sinifdəki bütün şagirdlərin "dəyər istiqamətlərinin" dəyişməsinə səbəb olur. Nəticədə yaradıcı təfəkkürün nüfuzunu artır ki, bu da öz növbəsində yaradıcı qabiliyyətlərin inkişaf etdirilməsinə təsir göstərir. 2. Müəllim şagirdlərə münasibətdə önmühakiməli olmamalıdır. Yəni şagirdlərin hər birində yaradıcı qabiliyyət potensialını görmək lazımdır. 3. Müəllimlər uşaqların yaradıcı təşəbbüslərini yalnız sinifdə verilən xüsusi tapşırıqlar zamanı deyil, həm də istənilən digər fəaliyyət zamanı görməlidir. Şagirdlərin xüsusi bacarıqlarının nümayişinə təşviq edilməsi onlarda müstəqillik və kreativliklə xarakterizə olunan fərdi fəaliyyət üslubunun formalaşmasına imkan yaradır. Qruplara təqdim edilən fərdi tapşırıqların planlaşdırılması ilə bu cür nəticəyə nail olmaq mümkündür. 4. Digər ciddi tələb şagirddə yüksək özünüqiymətləndirmə bacarığının formalaşdırılmasıdır. Bu zaman şagirdlərin yaradıcı nailiyyətlərinin qiymətləndirilməsi müəyyən ümumi meyarlarla deyil, xüsusi həvəsləndirmə stimulverici formalarla aparılmalıdır. Əsas məsələ uşağın görülmüş işdən zövq alması, sevinc hissi yaşaması və qiymətləndirmə fokusunda özünün məqsədə yönəlməsini görməkdir. 5. Növbəti tələb müəllimin özünün kreativliyinin tərbiyə olunmasından ibarətdir. Şagirdlərin yaradıcı qabiliyyətlərini inkişaf etdirmək üçün müəllimin özü yaradıcı şəxsiyyət olmalı, tədrisdə ətalətin, şablonun, formallığın qarşısını almaqda çətinlik çəkməməlidir.

Hər bir dövr təlim-tərbiyə prosesində yeni prioritetlər müəyyən edir. Lakin bu tələbləri həyata keçirən subyekt dəyişməz olaraq qalır. Bu cəmiyyətin təhsil sistemi və müəllimidir. Çünki məhz müəllim gələcək nəsli yetişdirən, formalaşdıran şəxsdir. Q.S.Altşullerin fikrincə, standart təhsil konsepsiyası - materialı mexaniki yadda saxlanmasına əsaslanır. Müəllimlərin əksəriyyəti materialı qavrayan, onunla iş aparmağı bacaran şagirdlər yetişdirirlər. Yalnız müəllimlərin az qismi

şagirdləri materiala yaradıcı yanaşmağı öyrədir. Yaradıcı şəxslərə məhz bu cür müəllimlər lazımdır [3]. Ənənəvi dərslərdə yaradıcı təxəyyülün aktivləşdirilməsi - adətən müəllimin şəxsi təşəbbüsü ilə baş verir. Təəccüblü deyildir ki, adi dərs proqramında müəllimin şagirdlərə verdiyi sualların arasında yada salmaq, göstərmək, söyləmək, izah etmək, təsvir etmək, sübut etmək və s. ilə bağlı hər cür suala rast gəlmək mümkündür. Lakin nəyi isə təsəvvür etmək və ehtimal etmək tələbini özündə ehtiva edən sual demək olar ki, heç vaxt səslənmir. Şagirdlərin fantaziyası və hipotetik (fərziyyəyə əsaslanan) təfəkkürünün bilərəkdən təşviq edilməsi, səbəblərə etinasız yanaşılması əhəmiyyətli və müxtəlif itkilərə səbəb olur. D.Bernal qeyd edirdi ki: "Ənənəvi təlim istedadlı üçün xüsusilə zərərlidir; yenilik üçün edilən istənilən cəhd qınanırsa, bu zaman ideyaların yeni birləşmələrini yaratmaq qabiliyyətinə o qədər təsir göstərilə bilər ki, nəticədə bu qabiliyyət tamamilə itirilmiş ola bilər".

Mütəxəssislərin fikrincə, təlimdə ənənələr və istiqamətlər kreativ bacarıqları ya təşviq edə, ya da onları "boğa" bilər. Uşaqlarda kreativ bacarıqların inkişaf etməsi uşaq bağçasında və ya məktəbdə təlim prosesində uşaqların hansı növ tapşırıqları icra etməsindən, bu prosesin periodikliyindən asılıdır. "Qapalı" tipli, bir doğru cavabı olan məsələlər kreativ təfəkkürü, fikrin orijinallığı və müstəqilliyi kimi mühüm keyfiyyətlərin formalaşmasının qarşısını alır. Bu funksiyanı yalnız həll üsulunun seçimində tam müstəqillik olan və çox sayda cavab variantını nəzərdə tutan "açıq" tipli məsələlər yerinə yetirə bilər.

İstənilən tədris məsələsi sadələşdirilmiş şəkildə üç komponentin məcmusu kimi təsəvvür edilməlidir. Bu proses özündə başlanğıc məlumatlar, məsələnin həll alqoritmi, məsələnin həllinin nəticəsi kimi komponentləri birləşdirir. Bu komponentlər məsələnin tipindən asılı olaraq məlum və naməlum ola bilər. Əgər məsələnin bütün komponentləri məlumdursa, bu zaman bu, adi təlim məsələsidir (qapalı tipli). Əgər bəzi komponentlər məlum deyildirsə, bu zaman yaradıcı məsələnin həll edilməsi təxəyyül və fantaziya olmadan mümkün deyil. Bu cür tapşırıq tiplərində son nəticə, yəni məlum üsullarla başlanğıc məlumatların dəyişdirilməsi yolu ilə yeni obyektlərin axtarışı qeyri müəyyəndir. Məsələlərin bu təsnifatı onların həllinin zəruri metodları və vasitələrini əvvəlcədən müəyyən etməyə imkan verəcəkdir.

Göründüyü kimi, təxəyyül şagirdin təlim fəaliyyətinə və idrak proseslərinin inkişafına nə qədər çox nüfuz edərsə, öyrənmə fəaliyyəti də bir o qədər səmərəli və yaradıcı olacaqdır. Çünki şagirdin idrak fəaliyyətinin inkişafı, xüsusilə təfəkkür və hisslərinin qarşılıqlı əlaqəsi təxəyyülün inkişaf səviyyəsi ilə asılıdır.

## ƏDƏBİYYAT


1. Bəylərov E.B. Uşaqlarda istedadın müəyyənləşdirilməsi və inkişaf etdirlməsi. İstedain işçi konsepsiyası. Bakı, "Təhsil", 2008. 224 səh.
2. Əlizadə Ə. Ə. Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyə edilməsi. Bakı: "Maarif", 1965, 128 s.

3. Альтшуллер Г. С. Алгоритм изобретения. М., 1969. – 270 с.
4. Выготский Л. С. Педагогическая психология - М.: Педагогика- пресс, 1996. 533 с.
5. Torrance, E. P. Cause for Concern, Chapter / Guiding Creative Talant, Prentice-Hall, 1962

**Кулиева Разия Ельхановна**

**Психологические основы развития творческого воображения у младших школьников в процессе обучения**

**РЕЗЮМЕ**

Младший школьный возраст представляет собой важный этап в развитии творческого воображения. Именно в этот период необходимо развивать творческий потенциал ребенка, так как в дальнейшем сделать это будет намного труднее.В статье указываются пути формирования систематического подхода, который может применяться в школьной практике в области развития и формирования воображения.

**Guliyeva Raziya Elxanovna**

**Psychological foundation of creative imagination development in primary school students in the learning process**

**SUMMARY**

Younger school age represents an important stage in the development of creative imagination. During this period it is necessary to develop the creative potential of the child, since in the future it will be much more difficult to do. The article describes the ways of forming a systematic approach, which can be applied in school practice in the field of development and the formation of imagination.

*Rəyçi: prof. E.B.Bəylərov*